# AZƏRBAYCAN RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ
# Q Ə R A R

**"Azərbaycan Respublikası ərazisində beynəlxalq avtomobil daşımalarını tənzimləyən "İcazə Sistemi" haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1997-ci il 10 yanvar tarixli 6 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 24 fevral tarixli 828-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1997-ci il 10 yanvar tarixli 6 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 3, maddə 148; 2003, № 8, maddə 460; 2009, № 1, maddə 34; 2017, № 2, maddə 286; 2019, № 1, maddə 153, № 12, maddə 2094; 2021, № 5, maddə 533; 2022, № 4, maddə 390, № 12, maddə 1559) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası ərazisində beynəlxalq avtomobil daşımalarını tənzimləyən "İcazə Sistemi" haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

1.1. 3-cü hissənin birinci abzası ləğv edilsin və ikinci azbasdan "(gömrük sərhəd buraxılış məntəqələri istisna olmaqla)" sözləri çıxarılsın;

1.2. 4-cü hissədən "gömrük sərhəd buraxılış məntəqələrində gömrük orqanları və ya ölkə ərazisində" sözləri çıxarılsın;

1.3. 5-ci hissənin ikinci abzası ləğv edilsin;
1.4. 10-cu hissənin ikinci və üçüncü abzasları ləğv edilsin.
2. Bu Qərar 2023-cü il martın 1-dən tətbiq edilir.

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 6 noyabr 2023-cü il

№ 406